**Mətanət AZMANLI**
Azərbaycan Milli Konservatoriyasının
müəllimi və dissertantı
Bakı, AZ 1073, Yasamal rayonu Ələsgər Ələkbərov 7
E-mail: metanet.azmanli@gmail.com

DOI: 10.62440/AMK2025-1.s.25-33

# PİANOÇUNUN YETİŞMƏSİ ÜÇÜN ÜZDƏN OXU BACARIĞININ ƏHƏMİYYƏTİ

***Xülasə.*** *Hər bir ifaçının peşəkarlığı onun ilk dəfə gördüyü musiqi əsərlərinin tez və effektiv surətdə üzdən oxuması bacarığı ilə ölçülür. Piano aləti üzrə təhsil alan tələbələr üçün üzdən oxu səriştəsi xüsusilə əhəmiyyətlidir. Təqdim olunan məqalədə ixtisas-piano üzrə təhsil alan tələbələrə musiqi mətninin tez mənimsənilməsi üzrə proqram və resursların nümunəsində bu bacarığı inkişaf etdirmək kimi bir sıra üsullar nümayiş olunur. İllərdir ki, Böyük Britaniyanın ABRSM imtahan sistemində üzdən oxu fənni imtahanın tərkib hissəsi olaraq, böyük əhəmiyyət kəsb edir. Məqalədə, həmçinin, dünya universitet və musiqi təhsili ocaqlarında musiqi mətninin üzdən oxuma bacarığının inkişafına yönəlmiş bir sıra sınaqların keçirilməsi məsələsi gündəmə gətirilir.*

***Açar sözlər:*** *üzdən oxu, piano tədrisi, ABRSM, musiqi mətni, proqram və resurslar*

Hər bir pianoçunun yüksək peşəkarlığının göstəricisi müxtəlif janr və dövrlərdə bəstələnmiş musiqi mətnini cəld və səliqəli üzdən oxuması bacarığıdır. Üzdən oxu – tamamilə yeni musiqi əsərinin ilk baxışdan ifası deməkdir. Gələcəyin piano ifaçısının təhsil aldığı ilk illərdən bu vərdişə yiyələnmək üçün ciddi çalışması gərəkdir. XX əsrin əvvəllərinə qədər olan dövrlərdə pianoçular geniş repertuar (demək olar ki, bütün piano repertuarı nəzərdə tutulur), gündəlik çıxışlar vasitəsilə bu bacarığı mənimsəyə bilirdilər. Piano aləti ilə ilkin tanışlığı səviyyəsində müəllim bir sıra ibtidai siniflər üçün tərtib olunmuş dərsliklərdən çoxsaylı musiqi nömrələrinə müraciət edərək şagirdin musiqi savadının artmasına, musiqi obrazları ilə düşünmə tərzinin formalaşmasına çalışır [1; 14; 15]. Sadalanan dərsliklərin hər birində mahnı, rəqs kimi janrlarda, polifonik, homofonik fakturada sadədən mürəkkəbə kimi sıralanmış pyeslər şagird və tələbələrin texniki ifaçılıq bazasının təməlini qoyur.

Son 50 il ərzində bu mövzu bir çox pedaqoqların tədqiqat obyektinə çevrilmişdir. Mərmərə universitetinin müəllim və professor heyəti 12 nəfəri üzdən oxu bacarığının inkişafına yönəlmiş bir sınaq keçırmişlər [4]. Hər qrupu 6 nəfərdən ibarət tələbələrin bir qismi ənənəvi, digər qismi isə eksperimental proqram üzrə üzdən oxu testlərinə hazırlaşmışlar. Eksperimental proqram üzrə hazırlaşan tələbələrin daha yüksək göstəriciləri qeyd olunmuşdur [2].

70-ci illərdə J.Sloboda E.V.S (*Eye – Voice – Span*) – ingilis dilində mətni oxuma texnikasını tədqiq etmişdir. Göz-Səs-Əhatə dairəsi kimi tanınan bu metod mətni oxuma bacarığının inkişafına yönəlmişdir. E.V.S. mətni oxuma texnikası koqnitiv proseslərə aiddir. Mətni oxuyan natiq, sözsüz ki, tam tələffüz etdiyi sözlərdən bir neçə sözü görür, bunu yoxlamaq üçün qəflətən işıqlar söndürülür. Bu situasiyada yaxşı üzdən oxu bacarığı olan natiq 6-8 sözlə mətni davam edir [3].

E.H.S (*Eye – Hand – Span*) – Göz-Əl-Əhatə dairəsi metodu il göz və əllərin üzdən oxu prosesində görmə trayektoriyasının uzunluğu müəyyən olunur. Notlar üfüqi və ziqzaq şəkildə baxışdan keçirilir, gözlərin proqressiv və reqressiv hərəkəti nəticəsində musiqi mətni xırda detalları ilə yaddaşa ötürülür və pianoçu əsəri ifa edir [5]. Əslində, musiqidə üzdən oxu vərdişinin səviyyəsini ölçmək üçün bir sıra meyarlar vardır.

1. Eşitmə qabiliyyəti. Solfecio oxumaq, çox sayda musiqi əsərləri dinləmək, uşaqlıq dövründən musiqi yaddaşını folklor və dünya musiqi parçaları ilə zənginləşdirmək bu qabiliyyətin inkişafına kömək edir.
2. Applikatura. Musiqi mətnini oxuyarkən barmaqların bir vərdiş olaraq, qeyri-ixtiyari düzgün qoyuluşu çox vacibdir. Üzdən oxuma prosesinin səlis, dayanmadan olması mühüm məsələdir. Applikaturanın oturuşması üçün çox sayda qamma və etüdlərin çalınması vacibdir.
3. Gözlərin əllərlə birgə koqnitiv, əlaqəli işi. Üzdən oxu, ən başlanğıcında, göz hərəkətləri vasitəsilə icra olunur. Bu prosesin cəld və effektiv keçirilməsi üçün intensiv məşqlər gərəkdir.
4. Elementar nəzəri biliklər. Ölçü və tonallıqları təyin etmək, elementar not savadı musiqi mətninin oxunmasına kifayət etsə də, keyfiyyətli üzdən oxuma deyildir. Musiqi parçasında bir çox xırda detallar da ola bilər. Bütün informasiyanı oxuduqdan sonra, onu anlamaq və icra etmək lazımdır. Bunun üçün nəzəri biliklərə yiyələnmək vacibdir.

Yuxarıda sadalanan vərdişlər sistematik çalışmalar nəticəsində əldə oluna bilər. Bunun üçün digər ölkələrdə istifadə olunan metodlardan yararlanmaq uğurlu nəticələrə gətirəcəkdir. XIX əsrin sonlarında Böyük Britaniyada təsis olunmuş ABRSM (Associated Board of the Royal Schools of Music) üzdən oxu testini imtahan sisteminə əlavə etmişdir. Bu qurum bütün alətlər, həmçinin piano üzrə pilləvarı artan səviyyələrlə imtahanların keçirilməsi üçün yaranmışdır. İmtahana 3 pyes, qamma, üzdən oxu və eşitmə qabiliyyəti daxildir. Üzdən oxu testi 21 bal civarında qiymətləndirilir. Heç bir yaş həddi olmayan imtahan sistemində hər kəs öz qabiliyyəti və bacarığına görə uğur qazana bilər. Üzdən oxu bacarığının mükəmməlləşməsi üçün ABRSM sistemi kitab vəsaitləri dərc edir. Həmin kitabların bəzisi açıq satışda əldə oluna bilər. Üzdən oxu kitabları Grade1 – (I sinif)-dən Grade 8-ə (XIII sinif) kimidir. Hər yeni sinfin hədəfi pillələrlə inkişaf, daha detallı musiqi mətni ilə tanışlıqdır. İmtahan götürən məsuliyyətli və hərtərəfli musiqiçi Londanda dərc olunmuş və tələbəyə yad olan musiqi parçasını təqdim edir,

tələbəyə hazırlıq üçün 30 saniyə vaxt verilir. Bu müddət ərzində tələbə musiqi mətni ilə cəld tanış olub ifa etməlidir.

**Grade I – I sinif**

Bu sinfin dərs vəsaitinə daxil olmuş musiqi parçaları ayrı əllərlə verilir və C, G, F-dur və a, d moll qammalarındadir. Sadə 4/2, 4/3, 4/4 ölçüdə olan pyeslərdə nöqtəli not, səkkizlik not və pauzalardan istifadə olunur. Dinamik işarələrdən *p, mp, mf, f, cresch., dim.,* templərdən isə *Andante, Allegretto, Lively* verilmişdir. Sağ və sol əllər ayrı-ayrılıqda, 5 barmaq pozisiyasında təqdim olunur. *Staccato*, *legato,* aksent işarələri də mövcuddur [6].




**Şəkil 1. [6, s. 2]**

**Grade II- II sinif**

II sinfin üzdən oxu kitablarına daxil olan musiqi nömrələrində sağ və sol əllərin birgə ifasına start verilir [7]. D-dur, e-moll, g-moll qammaları əlavə olunur. Nöqtəli çərək, bütöv not uzunluqları, *pp, Andantino, Espressivo*, 2 eyni notu birləşdirən liqalar da mövcuddur.




**Şəkil [7, s. 7]**

**Grade III- III sinif**

Bu sinfin dərsliyində təqdim olunmuş musiqi nömrələri yuxarıda sadalanan tonallıqlardan əlavə A-dur, B-dur, Es-dur və h-moll ola bilər. Sadə 3/8 ölçüsü,

16-lıq notlar, nöqtəli çərək və səkkizlik pauzalardan istifadə olunur. Sağ və sol əllərdə barmağı çevirmək pozisiyası, akkordlar əlavə edilmişdir. Daha geniş temp və dinamik işarələr vardır (*Cantabile, Vivo, Grazioso* və s.) [8].




**Şəkil 3. [8, s. 8]**

**Grade IV- IV sinif**

IV sinfin kitablarına daxil olmuş musiqi parçalarında mürəkkəb 6/8 ölçüdə olan nömrələr müşahidə olunur. Təqdim olunan musiqi əsərlərində daha çox musiqi terminləri, *tenuto* işarəli notlar əlavə edilmişdir. Xanə xarici, xromatik notlar üzdən oxu səriştəsində ritm, alterasiya işarəli notların cəld ifası üçün hədəfdir [9].




**Şəkil 4. [9, s. 11]**

**Grade V- V sinif**

V sinif kitablarındakı musiqi parçaları bir qədər proqramlı pyeslərin meyarlarına uyğun gəlir. Vals, marş, prelüd xarakterlərində olan rəngarəng musiqi nömrələri E-dur, As-dur, fis-moll, c-moll tonallıqlarında, sinkopa, 4 və daha çox səsdən ibarət akkordların işlədilməsi ilə zənginləşir. Əsərin sonunda *ritenuto,*

*rallentando* tədrici surət azaldılması terminləri, dinamik işarələrdən isə *ff* əlavə olunmuşdur [10].




**Şəkil 5. [10, s. 16]**

**Grade VI- VI sinif**

Bu sinfə aid olan üzdən oxu kitablarına mürəkkəb ölçü nümunələri ilə bərabər qarışıq ölçüdə (9/8, 5/8, 5/4) yazılmış musiqi parçaları da mövcuddur. Sağ pedalın və açar dəyişkənliyinin əlavə olunması, şagird və tələbələrin daha çox səriştəli üzdən oxu bacarığından yararlanması mütləq vacibdir. Bu kitablara triollar, 16-lıq pauzalar da əlavə olunmuşdur [11].




**Şəkil 6. [11, s.13]**

**Grade VII- VII sinif**

Bu sinif üçün tərtib olunmuş kitablar qısa, period formasında yazılmış proqramlı pyeslərdən ibarətdir. Macar rəqsi (7/8 ölçü), Oyanış (7/4 ölçü) kimi maraqlı nömrələrlə zəngindir. Kitablara daxil olan nömrələrdə *una corda* pedal və oktava həcmində sıçrayışlar da qeyd olunub. Pyeslərdə temp dəyişkənliyi də ola bilər [12].




**Şəkil 7. [12, s.16]**

**Grade VIII - VIII sinif**

Son VIII sinfə aid kitablar tam bitkin proqramlı əsərlər vasitəsilə piano aləti ilə ciddi məşğul olan hər bir insanın üzdən oxu vərdişlərini əks etdirir. Dolğun fakturalı maraqlı musiqi pyesləri daha zəngin terminlərlə, H-dur, Des-dur qammalarında təqdim olunur. Mürəkkəb ölçülər (12/8), əsərdə tempin tədrici artması (*accel.*), sadə melizmlər də əlavə olunur [13].

Impromptu




**Şəkil 8. [13, s.14]**

**Nəticə**

Piano ifaçılığı sahəsində yüksək peşəkarlığın əsas göstəricilərindən biri olan üzdən oxu bacarığı musiqi təhsili prosesində sistemli şəkildə inkişaf etdirilməlidir. Bu bacarığın formalaşması və təkmilləşməsi üçün eşitmə qabiliyyəti, düzgün applikatura, göz və əllərin koordinasiyalı işi, eləcə də nəzəri biliklərin rolu əvəzsizdir. Müasir dövrdə üzdən oxu texnikasının öyrədilməsində təkcə ənənəvi metodlarla kifayətlənmək mümkün deyil, beynəlxalq təcrübənin, xüsusilə ABRSM sisteminin tətbiqi bu istiqamətdə böyük nailiyyətlər vəd edir.

Təqdim olunmuş dərəcəli (Grade I–VIII) vəsaitlər pilləli şəkildə üzdən oxu bacarığını inkişaf etdirməyə imkan verir. Tədqiqatlar göstərir ki, pedaqoji prosesə sistemli yanaşma, eksperimental proqramların tətbiqi və müasir texnologiyaların cəlb olunması tələbələrin nəticələrinə əhəmiyyətli təsir göstərir. Üzdən oxu bacarığının tədrisində nəzəri və praktiki biliklərin balanslı şəkildə inteqrasiyası, gələcək pianoçuların həm musiqi mətni ilə sürətli tanışlıq, həm də yüksək ifa keyfiyyəti əldə etməsi üçün mühüm şərtdir. Azərbaycan musiqisi nümunələri üzərində yeni üzdən oxu dərsliklərinin hazırlanması vacib məsələlərdəndir və bu istiqamətdə müəyyən çalışmalar etmək niyyətindəyik.

**ƏDƏBİYYAT:**


1. Yeqorova, L., Siroviç, R. Fortepianoda çalmaq üçün ibtidai dərslik kitabı – Bakı: Şirvannəşr, – 2004. – 152 s.
2. Kupana, M.N. Sight-reading skills in piano education: A comparative study. // Procedia, Social and behavioral sciences – İstanbul: Marmara University Press, – 2012. – pp. 143–155.
3. Levin, H., Kaplan R. What is the length of a speaking span?"// Journal of Verbal Learning and Verbal Behavior. – 1970. Vol. 9, No. 1. – p. 65–70. DOI: https://doi.org/10.1016/S0022-5371(70)80079-5
4. Otacıoğlu, G. Müzik eğitiminde nota okuma ve piyano eğitimine etkisi. // Marmara Üniversitesi Atatürk Eğitim Fakültesi Eğitim Bilimleri Dergisi. – 2012. No. 36. – s. 153–165.
5. Sloboda J.A. The eye-hand span: An approach to the study of sight-reading. // Psychology of Music. – 1974. Vol. 2, No. 2. – s. 4–10. DOI: https://doi.org/10.1177/030573567400200202
6. Associated Board of the Royal Schools of Music (ABRSM). *Sight-reading books: Grade 1.* – London: ABRSM Publishing, – 2009. – 12 p.
7. Associated Board of the Royal Schools of Music (ABRSM). *Sight-reading books: Grade 2.* – London: ABRSM Publishing, – 2009. – 12 p.
8. Associated Board of the Royal Schools of Music (ABRSM). *Sight-reading books: Grade 3.* – London: ABRSM Publishing, – 2009. – 14 p.
9. Associated Board of the Royal Schools of Music (ABRSM). *Sight-reading books: Grade 4.* – London: ABRSM Publishing, – 2009. – 16 p.
10. Associated Board of the Royal Schools of Music (ABRSM). *Sight-reading books: Grade 5.* – London: ABRSM Publishing, – 2009. – 16 p.

11. Associated Board of the Royal Schools of Music (ABRSM). *Sight-reading books: Grade 6* – London: ABRSM Publishing, – 2009. – 24 p.
12. Associated Board of the Royal Schools of Music (ABRSM). *Sight-reading books: Grade 7*. – London: ABRSM Publishing, – 2009. – 24 p.
13. Associated Board of the Royal Schools of Music (ABRSM). *Sight-reading books: Grade 8*. – London: ABRSM Publishing, – 2009. – 16 p.
14. Ляховицкая, С.С. Школа игры для начинающих–Санкт-Петербург: Композитор, –1997–84с.
15. 15.Николаев. А. Школа игры на фортепиано – Москва: Скорина, – 1994. – 192с.

**Метанет АЗМАНЛЫ**
Азербайджанская Национальная Консерватория
педагог, диссертант

***Аннотация:*** *Профессионализм каждого исполнителя измеряется его способностью быстро и эффектно прочитать с листа музыкальные произведения, которые он видит впервые. Для студентов, обучающихся игре на фортепиано, навыки чтения с листа особенно важны. В представленной статье демонстрируется ряд методов развития данного навыка на примере программ и ресурсов, обучающих студентов-пианистов быстрому освоению и исполнению нотного текста. На протяжении многих лет читка с листа является важной частью экзамена в британской экзаменационной системе ABRSM. В статье также освещается проведение серии экспериментов, направленных на развитие умения читать нотный текст в университетах и музыкальных учебных заведениях по всему миру.*

***Ключевые слова***: *читка с листа, преподавание фортепиано, ABRSM, нотный текст, программные ресурсы*

**Metanet AZMANLI**
Azerbaijan National Conservatory
Lecturer and Dissertant

***Abstract:*** *The professionalism of any concert pianist is measured by their quick and effective sight-reading abilities. For students studying piano, sight-reading skills are fundamental. This article outlines several methods for developing this skill, utilizing programs and resources to instruct piano students on how to learn and perform musical notation quickly. Sight reading has been a crucial component of the ABRSM exam system for many years. The article also covers a series of experiments designed to enhance students' abilities to read music notation in universities and music schools worldwide.*

***Keywords:*** *Sight reading, Piano lessons, ABRSM exam system, Music notation, Programs and resources*

**Rəyçilər:** sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor Lalə Hüseynova
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Naibə Şahməmmədova